بسم الله الرحمن الرحيم

Abdus ibn Malik əl-Attar, Allah ona rəhmət etsin, dedi: "Mən Abu Abdullah Əhməd ibnu Hənbəlin (Allah ondan razı olsun) belə dediyini eşitdim:

"Bizim anlayışımızda sünnənin əsasları aşağıdakılardır:

1. **Allah Rəsulunun ﷺ səhabələrinin yoluna bağlılıq və onları təqib etməkdir;** Bidətləri tərk etmək, çünki hər bir bidət zəlalətdir, həmçinin mübahisələri və öz nəfsi istəklərinə uyan kimsələr ilə münasibətləri tərk etmək. Dini mübahisələri və höcətləşmələrin tərk etmək.

Bizim anlayışımızda, Rəsulullahdan ﷺ rəvayət olunan hər bir şey - sünnədir. Sünnə Quranı izah edir və Quranın açıqlamasıdır. Sünnədə qiyas yoxdur və onun üçün misallar gətirilmir və onu nə ağıl nə də hisslər vasitəsi ilə dərk etmək mümkün deyil; yalnız təqib və nəfsi istəklərin tərk edilməsi gərəkdir.

2. **Həmçinin sünnədə vacib olan şeylər var; və onların cüzi bir hissəsini belə tərk edən, onu qəbul etməyib ona iman gətirməyən kimsə, sünnə əhlindən sayılmaz.** Bu da: Xeyr və şərin qəza və qədər ilə meydana gəlməsinə iman və bu haqda rəvayət olunan hədislərə iman gətirmək; qədərə "Necə? Nə üçün?" və ya "Nə cür?" suallarını verməyərək iman gətirmək. Yalnız tam tabeçilik olmalı və qədərə aid hər bir şeyə iman gətirilməlidir.

Əgər kimsə hər hansı bir hədisin izahını bilmirsə və onun ağlı həmin hədisi dərk edə bilmirsə, o bununla kifayətlənməlidir. O, iman gətirib, onu qəbul etməlidir. Bu da damladan xəlq edilmə haqqında "Sadiqul-Məsduq" hədisinə bənzərdir. Bu hədisin səhihliyində ittifaq etmişlər. Həmçinin qədər haqqında da buna bənzər hədislər. Həmçinin bu, Allahın görünməsi hədislərinə, hətta qeyri adi və qavrayış üçün yad olsalar belə.

Həqiqətən bu hədislərə iman gətirilməli və onlardan bir hərf belə inkar edilməməlidir. Bu etibarlı rəvayətçilər tərəfindən rəvayət olunan digər hədislərə də aiddir.

Heç kim mübahisə və höcətləşmə aparmamalı və mübahisə etməyi öyrənməməlidir. Həqiqətən qədər, Allahın görünməsi, Quran və sünnənin başqa məsələləri haqqında müzakirə etmək bəyənilmir və qadağan edilmişdir. Bununla məşğul olan kimsənin söylədikləri sünnəyə uyğun olsa belə, apardığı mübahisəni tərk etməyənə qədər, sələflərdən rəvayət olunanlara tabe olub iman gətirməyənə qədər, o sünnə əhlindən sayılmaz.

3. **Quran Allahın kəlamıdır, məxluq deyil.** Quranın məxluq olmadığını deməkdən çəkinmə. Həqiqətən Allahın kəlamı Onun Özündən ayrı qalan bir şey deyil. Şübhəsiz Onun kəlamında heç bir şey məxluq deyil. Bu məsələdə dinə yenilik gətirən kimsələr ilə mübahisələrə qapanmaqdan çəkin, həmçinin tələffüz haqqında və ona bənzər şeylər haqqında danışanlardan da çəkin. Həmçinin "Quranın məxluq olduğunu və ya olmadığını bilmirəm, lakin o həqiqətən Allahın kəlamıdır" deyənlərdən də çəkin. Bu sözləri söyləyən insan, "Quran məxluqdur" deyən insan kimi bidət əhlindəndir. Lakin, həqiqətən Quran Allahın kəlamıdır, məxluq deyil.

4. **Həmçinin Allahın Qiyamət günü görünməsinə iman gətirmək**. Bu da Rəsulullahdan ﷺ səhih hədislərdə rəvayət olunmuşdur. Həmçinin Rəsulullahın ﷺ öz Rəbbini görməsinə iman gətirmək. Allahın Rəsulundan ﷺ səhih olaraq rəvayət olunmuş hər bir şeyə iman etmək. Bu haqda rəvayəti Qatadə İkrimədən o da ibn Abbasdan rəvayət ediblər. Həmçinin bu rəvayəti əl-Hakam ibn Aban, İkrimədən o da İbn Abbasdan və Əli ibnu Zeyd, Yusuf ibn Mihrandan o da İbn Abbasdan rəvayət etmişlər. Biz bu hədisi Rəsulullahdan ﷺ rəvayət olunduğu kimi, zahiri mənasını anlayırıq və bu

haqda müzakirə etmək bidətdir. Biz bu rəvayətin zahiri mənasına iman gətiririk və bu haqda heç kimlə mübahisə etmirik.

5. **Qiyamət gününün mizanına iman gətirmək**, necə ki bu barədə "Qiyamət günü qul çəkiləcək və çəkisi ağcaqanad qanadından yüngül gələcək" hədisində rəvayət olunub. Həmçinin səhih hədislərdə rəvayət olunduğu kimi, qulların əməlləri də çəkiləcək. Bu məsələlərə iman gətirmək və onları təsdiq etmək, həmçinin onları inkar edənlərdən üz çevirmək və bu məsələlər haqda mübahisələri tərk etmək.

6. **Həqiqətən Allahın Qiyamət günü qulları ilə, arada tərcüməçi olmadan, danışmasına** iman gətirmək və bunu təsdiq etmək.

7. **Həmçinin hovuza iman**. Qiyamət günü Allah Rəsulunun ﷺ hovuzu olmasına və onun ümmətinin həmin hovuzdan su içməsinə iman gətirmək. O hovuzun eni uzununa bərabər olaraq, bir ay yol məsafəsindədir. Bir çox səhih hədislərdə rəvayət olunduğu kimi, onun üzərindəki qədəhlərin sayı göydəki ulduzların sayına bərabərdir.

8. **Həmçinin qəbir əzabına** və bu ümmətin öz qəbirlərində fitnəyə düşməsinə və iman, islam, "Rəbbin kimdir?" və "Rəsulullahin kimdir?" barəsində sorğu-sual olunmasına **iman gətirmək**. Onun yanına Munkər və Nəkir gələcəklər və onların gəlişi izzət və cəlil sahibi olan Allahın istədiyi kimi olacağına iman edib və bunu təsdiq etmək.

9. **Həmçinin Rəsulullahın ﷺ şəfayətinə** və insanların yanıb külə döndükdən sonra oddan çıxmalarına iman gətirmək. Bundan sonra onları Cənnət qapısının yanında axan çaya atılmalarını əmr edəcəklər və bu, səhih hədislərdə rəvayət olunduğu kimi və Allahın istədiyi kimi olacaq. Həqiqətən bunlara iman edərək təsdiq etmək lazımdır.

10. **Həmçinin Məsihi Dəccalın zühuruna və onun gözləri arasında "kafir" sözünün olmasına iman gətirmək**, bu haqda rəvayət olunan və bizlərə məlum olan hədislərə və bunun baş verməsinə iman gətirmək. Həmçinin Məryəm oğlu İsanın nazil olaraq Lüdd şəhərinin girəcəyində onu öldürməsinə iman gətirmək.

11. **İman söz və əməldən ibarətdir o artır və azalır**. Hədisdə rəvayət olunduğu kimi: "Ən gözəl əxlaqa malik olan möminlər, daha kamil iman sahibləridir". Namazı tərk edən küfr etmişdir və namazdan başqa elə bir əməl yoxdur ki, onun tərk edilməsi küfr olsun. Onu tərk edən kafirdir, və Allah onun qətlini halal etmişdir.

12. **Bu ümmətin, onun Rəsulundan ﷺ sonra ən xeyirliləri Abu Bəkr əs-Siddiq, sonra Ömər ibn əl-Xattab, sonra Osman ibn Əfvandır**. Biz Rəsulullahın ﷺ səhabələrinin etdiklərinə müvafiq olaraq, bu üç nəfərə birinci yerlər ayırır və bu haqda ixtilaf etmirik. Bu üç nəfərdən sonra – şura əhli, onlarda beşdir; Əli ibn Abu Talib, Talha, az-Zubeyr, Abdurrəhman ibn Auf, Sad, Allah onlardan razı olsun. Onların hamısı rəhbərliyə layiq idilər, hamısı imamdırlar. Bu haqda biz İbn Ömər hədisinə üz tuturuq: "Biz sadalayırdıq və bu da Rəsulullahın ﷺ və onun səhabələrinin həyatda olduqları zamanlar idi. Biz Abu Bəkr, sonra Ömər, sonra Osman deyirdik, sonra isə susurduq".

Əshəbu Şuaradan sonra Bədr döyüşünün iştirakçılarından birinci mühacirlər sonra ənsarlar gəlir. Sonra qalan səhabələr hicrətlərindən və islamı qəbul etməklərindən asılı olaraq.
Sonra Rəsulullahın ﷺ qalan səhabələri. Rəsulullah ﷺ ilə bir il, və ya bir ay, bir gün, hətta bir saat belə birgə olan ya da sadəcə onu görən, onun səhabələrindən sayılır. Onun dərəcəsi Rəsulullah ﷺ ilə birgə keçirdiyi vaxtdan, onun İslama daxil olma zamanından, Rəsulullahdan ﷺ nə qədər eşitdiyindən və neçə müddət onu görməsindən asılıdır.

Səhabələrdən ən kiçik dərəcədə belə olanı, Rəsulullahı ﷺ görməyən nəsildən daha xeyirlidir, hətta onlar bütün etdiyi əməlləri ilə Allaha qovuşsalar belə.

Rəsulullahın ﷺ səhabəsi olaraq onu eşidən və görən, hətta onu öz gözləri ilə bir saat belə görən və ona iman gətirən kimsə, tabiinlərdən xeyirlidir, hətta axırıncılar bütün saleh əməlləri etmiş olsalar belə.

13. **Möminlərin əmirlərinə və başçılarına, onların saleh və ya fasiq olmalarına baxmayaraq tabeçilik və itaət göstərmək**. Hakimiyyəti ələ almış, ətrafında insanların toplandığı və ondan razı qaldıqları kimsə və həmçinin hakimiyyəti qılınc gücünə ələ keçirmiş və beləliklə də hökmdar olmuş kimsə, möminlərin əmiri sayılır. Müharibələr isə istər saleh istərsə fasiq hökmdarın rəhbərliyi altında aparılır və tərk olunmur.

Həmçinin qənimətin bölünməsi və cəzaların yerinə yetirilməsi hakimlər tərəfindən edilən işlərdəndir. Onları heç kim təhqir etməməli və devirməyə çalışmamalıdır.

Zəkatları onlara vermək icazəlidir və onlara verilən zəkat, hakimin saleh və ya fasiq olduğundan asılı olmayaraq, səhih hesab olunur.

Həmçinin onun arxasında və ya onun təyin etdiyi əmirin arxasında Cümə namazını qılmaq icazəlidir, o namaz tamdır və iki rükətdən ibarətdir. Hakimə qarşı çıxan kimsə, sələflərdən nəql olunanı tərk etmiş və sünnəyə qarşı çıxmış bir bidətçidir. Hakimlərin saleh və ya fasiq olmasından asılı olmayaraq, onların arxasında namaz qılmağı özünə vacib bilməyən kimsəyə, Cümə namazından qazancı yoxdur. Onların arxasında iki rükət namaz qılmaq və bu namazın tam olduğuna etiqad etmək sünnədəndir. Bu haqda qəlbdə bir şübhə olmamalıdır.

İnsanların, istər xəlifəliyini qəbul etdikləri, istər zorla ətrafında toplanmış olduqları halda, müsəlman ümmətindən bir kimsə hakimə qarşı çıxarsa, bu əməli ilə o müsəlmanların birliyini qırır. Həmçinin bu əməli edən insan, Allah Rəsulunun ﷺ hədislərinə müxalif olur və əgər o xəvaric bu əməldə israr edərək ölərsə, cahilliyə dövrünün ölümü ilə ölmüş kimidir.

Müsəlman başçıya qarşı müharibə etmək və ona qarşı çıxmaq heç kimə halal deyildir. Bu əməli edən kimsə, sünnənin yolundan çıxmış bidətçidir.

14. **Həmçinin oğrular və xəvariclər bir insanın həyatına və ya malına qəsd edərək üstünə hücum edərlərsə, onlarla savaşmaq icazəlidir**. O, kimsə öz həyatını və mal-dövlətini qorumaq üçün hər bir mümkün olan vasitə ilə onlara qarşı vuruşa bilər. Əgər onlar onu tərk edərlərsə, onların arxalarına düşərək təqib etmək lazım deyil. Bu yalnız müsəlman başçılarının işidir. Hücuma məruz qalan insan yalnız təcavüz edildiyi yerdə özünü müdafiə edə bilər.

Həmçinin o heç kimi öldürməməyə çalışmalıdır. Əgər hücum edən təcavüzə məruz qalan kimsənin əlindən ölərsə, Allah onu uzaq eləsin. Əgər özünü müdafiə edən öz canını və malını müdafiə edərək ölərsə, mən ümid edirəm ki, o Allah yolunda ölən bir şəhiddir. Bütün rəvayət olunan hədis və əsərlərdə qeyd olunduğu kimi: onlarla savaşmaq əmr olunmuşdur, lakin onları öldürmək və arxalarına düşərək təqib etmək əmr edilməmişdir. Əgər təcavüzkar yıxılarsa və ya yaralanarsa, onu öldürmək olmaz. Əgər təcavüzkar əsir götürülərsə, onu öldürmək və ya ona özbaşına şəriətin təyin etdiyi bir cəza tətbiq etmək icazəli deyil. Ona hökmün çıxarılması hakimə həvalə edilir.

15. **Biz bir müsəlman haqqında onun etdiyi əməllərin əsasında, onun cənnətlik və ya cəhənnəmlik olduğuna şəhadət etmirik.** Biz saleh insanın cənnətə düşəcəyinə ümid edirik, eyni zamanda ondan narahatıq; və biz günahkar kimsədən narahatıq, lakin Allahın ona rəhm etməsinə ümid edirik.

Kim Allahın hüzuruna cəhənnəm alovunu vacib edən günahlarda israr etməmiş və tövbə etmiş çıxarsa, şübhəsiz ki Allah onu bağışlayar. Allah Öz qullarını bağışlayan və onların tövbələrini qəbul edəndir.

Əgər insan bir günahına görə bu dünyada cəzasını aldıqdan sonra Allahın hüzuruna gələrsə, Rəsulullahın ﷺ hədisində rəvayət olunduğu kimi, həmin cəza onun günahının kəffarəsidir.

Allahın hüzuruna cəza təyin edilmiş günahlardan tövbə etməmiş gələrsə, onun işi Allaha həvalə olunur və O, istəsə onu cəzalandırar, istəsə bağışlayar. Onun hüzuruna kafir olaraq gələni, O cəzalandırar və bağışlamaz.

16. **Evli bir insan etdiyi zina günahını boynuna alarsa və ya onun günahı sübut olunarsa, o daşqalaq edilməyə layiqdir.** Həmçinin Rəsulullah ﷺ daşqalaq etmişdir və Rəşidi xəlifələrdə daşqalaq etmişlər.

17. **Rəsulullahın ﷺ səhabələri haqqında pis danışan və ya onlara hər hansı bir səbəbə görə nifrət bəsləyən və onların qüsurlarından danışan kimsə, bidətçidir.** Və onların hamısı üçün Allahdan rəhmət diləməyənə qədər və qəlbini onlara qarşı olan kindən təmizləməyənə qədər bidətçi olaraq qalacaqdır.

Nifaq – küfrdür. Bu da bir insanın, zahirində İslama bağlılığın göstərməsi, Allaha iman gətirməməsi və Ondan qeyrisinə ibadət etməsidir. Bu da Rəsulullahın ﷺ zamanındakı munafiqlərin sifətlərindəndir.

Həmçinin onun "Bir insanda üç sifət cəm olsa, o munafiqdir" sözləri qorxu və təhdid üçündür. Biz onları şərh etmədən, rəvayət olunduğu kimi rəvayət edirik. Həmçinin Rəsulullahın ﷺ: "Məndən sonra bir birinizin başlarını kəsən kafir və azğın insanlara dönməyin", həmçinin: "Bir müsəlmanı söymək fasiqlik, onu öldürmək isə küfrdür". Həmçinin: "Kim müsəlman qardaşına, "ey kafir", deyərək müraciət edərsə, onların ikisindən biri bu sifəti qazanmış olar" və buna bənzər: "Bir insanın öz nəslindən imtina etməsi küfrdür, hətta onun nəsli nəcibli olmasa belə" sözləri belədir. Bu hədislərə bənzər başqa səhih hədisləri, onların şərhlərini bilməsək belə biz qəbul edir və bu məsələ barəsində danışmırıq və mübahisə etmirik. Həmçinin bu hədislərə sələflərdən varid olan şərhlərdən başqa bir şərhləri aid etmirik və onları yalnız onlardan daha səhih olan rəvayətlər əsasında rədd edirik.

18. **Cənnət və Cəhənnəm artıq yaradılıb.**

Həmçinin Rəsulullah ﷺ demişdir: "Mən Cənnətə daxil oldum və orada bir saray gördüm..." , "...kövsəri gördüm". O həmçinin demişdir: "Mənə Cəhənnəm göstərildi və orada olanların əksəriyyəti qadınlar idi..." və ya "Mənə Cəhənnəm göstərildi, məndə orada filan və filan şeyləri gördüm". Cənnət və Cəhənnəmin yaradılmasını inkar edən, Quran və Rəsulullahın ﷺ hədislərinə inanmır və mən hesab edirəm ki, o Cənnət və Cəhənnəmə belə inanmır.

19. **Tövhid əhli olaraq müsəlman ölən kimsə üçün cənazə namazı qılınır və onun üçün bağışlanma dilənilir.** Onun üçün bağışlanma diləməyi tərk etmək olmaz və biz onun etdiyi böyük və kiçik günahlarına görə onun cənazəsini tərk etmirik. Onun işi Allah sübhanə və təaləyə aiddir.

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Allahın salavatı və salamı Onun Rəsulu Muhəmmədə və ailəsinə olsun!